# SABİR RÜSTƏMXANLI RUHU

Azərbaycanın ictimai-siyasi həyatının ön sıralarında görünən Sabir Rüstəmxanlı yaradıcılığa başladığı zamandan bəri ədəbiyyatımızın da ədəbi yolu, ədəbi təhsil dairəsi ilə ədəbi mühit yaradan görkəmli şair və ədəbiyyat xadimidir.

Sovet dövrünün son siyasi zəlzələləri hələ başlamamış o, Sovet cəmiyyətinin artıq başqa hava üstündə köklənməli olduğunu duymuş, ictimai ədəbi mövqeyi ilə hadisələrin ön cərgəsinə çıxmışdı. Mənfur Zori Balayanın millətlərarası ədavəti qızışdıran "Ocaq" kitabına cavab olaraq qələmə aldığı "Ömür kitabı" Sabir Rüstəmxanlının kəskin publisistik yaradıcılığının əsil örnəyi kimi meydana çıxdı.

Beləliklə, Sabir Rüstəmxanlı yeni mərhələyə kifayət qədər hazırlıqla çatmışdı. O artıq təkcə ədəbi mühitdə yox, qynar ictimai-siyasi həyatda yox, həm də bütövlükdə Azərbaycan cəmiyyətinin hər bir üzvünə doğmalaşmışdı. Şəfəq Nasirin ədəbi tənqidi görüşlərini özündə ehtiva edən "Könüllərə şəfəq payı" kitabına Sabir Rüstəmxanlı yaradıcılığına və ictimai mövqeyinə həsr olunmuş "Döyülə-döyülə ucalan insan" məqaləsinin daxil edilməsi təsadüfi deyildi. Kifayət qədər müddəti özündə əks etdirən kitabın bir neçə səhifəsinin S.Rüstəmxanlıya həsr olunması əslində Şəfəq Nasirin ədəbi mühitə vicdanlı münasibətinin nəticəsidir.

Şəfəq Nasir doğru olaraq qeyd edir ki, Sabir Rüstəmxanlı həmişə ədəbi mühitin diqqətində olub, istər təqdir olunsun, istərsə də tənqid olunsun. Onu sevənlər, təqdir edənlər, əlbəttə, kifayət qədər çoxdur. Onun insanların ruhuna nüfuz edən döyüşkən şeirləri bir çox hallarda alov kimi insanların üzünü qarsır, onların varlığını səfərbər edir. Sanki yeni döyüşlər mərhələsi üçün silahlandırırdı. Ancaq siyasi həyatın özünəxas ziddiyyətli tərəfləri də az deyil. Məhz bu səbəbdən Sabir Rüstəmxanlının siyasi xəttin tənqidi yanaşanların münasibəti çox vaxt qərəzə çevrilir. Onun ziyalı mövqeyi qərazkarlıqla qaramalara məruz qalır. Az qala bu yöndən yanaşma ilə onun xalqımızın ruhundan süzülüb gələn dumduru poeziyası da kölgə altına alınırdı. O, bütün bunların heç birisindən çəkinməyərək sanki öz qəlbini tufanlara tapşırmışdı.

Şəfəq Nasir Sabir Rüstəmxanlıya qarşı bu cür ziddiyyətli münsibətlərin kökünü araşdırır. Hətta bəzən bunların siyasi sifariş olduğunu belə ustalıqla nəzərə çatdırır.

Şəfəq Nasir doğru olaraq qeyd edir ki, siyasi düşüncənin ziddiyyətləri insanların mənəvi birliyinə zərbə vuranda Sabir Rüstəmxanlı ziyalı mövqeyi ilə hər kəsi bir mərkəzdə birləşməyə çağırırdı. Onun kəskin siyasi publisistikası bədii yaradıcılığından güc alan poetik nəfəslə birləşərək insanların düşüncəsinə yeriyir. Müəllif həmin dövrün mənzərəsini əks etdirən və Sabir Rüstəmxanlı publisistikasının mövqeyini və gücünü özündə ehtiva edən bir parçanı xüsusi olaraq oxucu diqqətinə çəkir: "Kim iqtidara salam verirsə, damğalanır, kim müxalifətə yaxınlaşırsa, çörəyi, suyu kəsilir. Nə deyir tərəfsiz ziyalı? Deyir düşmənçilik eləməyin! Müxalifət də, iqtidar da ayrı-ayrılıqda ermənilərlə danışığa gedir, əl verib görüşür, amma öz aralarında düşməndirlər. Bu yollamı Azərbaycan torpaqları düşməndən azad ediləcək və biz xalqımızın bütövlüyünə nail olacağıq?"

Şəfəq Nasirin bu qeydlərini oxuyarkən əvvəlcə zənn edirdim ki, o Sabir Rüstəmxanlını yalnız şair kimi xarakterizə edəcək, ancaq mətnin içərisinə daxil olanda hiss etdim ki, müəllif obrazı siyasi meydandan ayırmır. Siyasi sifarişlərlə Sabir Rüstəmxanlının lider obrazını qaralamağa çalışanlar onu kütlənin gözündən salmaq üçün hər cür böhtanlarla aşağılamağa çalışır. Hətta döyməkdən belə çəkinmirdilər. Şəfəq Nasir doğru olaraq Sabir Rüstəmxanlının mənəvi boy artımını meydan boyu müşahidə edir. Onun döyülə- döyülə kiçilməyini yox, döyülə-döyülə ucalmağını göstərir. Şəfəq Nasirə yazısını götürdüyü istiqamət, seçdiyi ideya xətti ilə işləmək üçün Sabir Rüstəmxanlının varlığının manifesti olan bədii yaradıcılığının ən təsirli silahı kimi təqdir edir. Çünki Sabir Rüstəmxanlı bilavasitə xalqın içindən çıxıb. Onun nə istədiyini, nə uğrunda mübarizə apardığını yaxşı bilir. Və Şəfəq Nasir ona görə də Sabir Rüstəmxanlını xalqa bağlı sənətkar hesab edir. Onun yaradıcılığının güc mənbəyi xalqa bağlı olmasındadır. Müəllif doğru olaraq yazır: "S.Rüstəmxanlı özünün yaşamadığı, duymadığı həyatdan bircə sətir də yazmayıb. Nə deyib, nə yazıbsa gördüyünü, yaşadığını yazıb. Onun poeziyası, publisistikası, eləcə də bütün çıxışları ictimai dərdlərimizdən göyərib. Özümüzün özümüzlə mübarizəmizi, içimizdən yeyilməyimizi, kökümüzə, mədəniyyətimizə biganəliyimizi, yaddaşsızlığın, mənəviyyatsızlığın bügünkü aqibətini görüncə bir ziyalı, vətəndaş narahatlığı keçirir, ürəyi ağrıyır. Bu ağrıdan da fikirləri qor alır, alışıb-yanır". Göründüyü kimi Şəfəq Nasirin düşüncələri Sabir Rüstəmxanlının alovlu publisistikası və odlu poeziyası ilə həmahəng səslənir. Biz həmin düşüncələrdə Sabir Rüstəmxanlının ömür kitabındakı ruhu görürük. Müəllif öz qəlbinin odunu yazısı ilə birləşdirəndə oxucu ilə özü arasında asanlıqla körpü yaradır.

Sabir Rüstəmxanlının məşhur şeiri var : "Nəyə gərək belə qardaş?" ritorik sualdır, ancaq şeir üçün ideyanı təmin edən sualdır. Şair sanki bu suala - yəni, hər kəsi düşündürən suala, yəni hər kəsi vahid mərkəzə gəlməyə mane olan müəmmalara cavab üçün yazıb bu şeiri:

Özümüzü içimizdən yeyən qurdlar -
alimciyəz, tarixbazlar,
Öz kökündən çoxdan qopub
kökdən yazan oyunbazlar
Xoşqeyrətli filanzadə!
nökər ruhlu haramzadə
səndən də pis!
daha qorxunc, daha xəbis!..
Nəyə gərək belə qardaş -
yaxınlığı yoxsa mənə?
Beləsindən milyon kərə doğma olmuş
Yerdən çıxan saxsı mənə!..

Bu da "Nəyə gərək belə qardaş" kimi tanıdığımız ünvan. Şair onu nə qədər kəskin, nə qədər odlu qırmanc-la vurur. Xalqın qarşısında maneə olan, azadlığa gedən yolu kəsən "qardaş"ın kimliyini kifayət qədər aydın cizgilərlə vermiş olur. Şəfəq Nasir əslində şeirdən gətirilən bir parça ilə Sabir Rüstəmxanlının böyük mübarizəsinin mahiyyətini göstərir. Bununla da oxucusuna anladır ki, şair xalqla nəfəs alıb, xalq uğrunda mübarizə aparıb. Xalq üçün çarpışıb, döyüşüb.

Sabir Rüstəmxanlının dərdi xalqın dərdidir. Şəfəq Nasirin müraciət etdiyi daha bir məqam şairin öz dili ilə belə açıqlanır: "Haqq yolunda vurulanda xoşbəxt idim, amma bu gün haqqı və Azərbaycanın maraqlarını düşünən azdır. Hər kəs öz yolunu təmizləməyə çalışır!.. Xalqın ağır günlərində, ictimai sifarişlə siyasi mühitə düşəndən bəri özümü unudub başqalarını böyütməklə məşğul olmuşam, indi də onların böhtanlarını eşidirəm..."Əlbəttə, Şəfəq Nasirin özünü də təəssüfləndirən məqamlar az deyil. O, dərin təəssüflə xalqa bayraq olmaq istəyən şairi, görkəmli ictimai xadimi nə üçün təyziqlərə məruz qoymalıyıq. Şəfəq Nasir Şairin böyük xalq qarşısındakı çıxışlarını yada salır. Onun mübarizələrdəki aydın mövqeyini diqqətə çəkir. Və bütün bunları şairin tarixi taleyi kimi yozur. Yeri gəldikcə kəskin publisistik düşüncə tərzini oxucunun ruhuna nüfuz edəcək gücündə sənətkara, görkəmli ictimai-siyasi xadimə münasibətini sərgiləyir: "S.Rüstəmxanlı türkçülüyün yorulmaz yolçusu, o ideyanın qanından, canından gələn müdrik, qocaman bir məhəbbətin daşıycısıdır. O, uzun zamandır ki, bir cəngavər kimi, azad düşüncənin, müstəqillik və mənəvi azadlıq yangısının, bütövləşmək, birləşmək istəyinin poetik, publisistik səsi, harayı ilə cəngəllikləri yara-yara yol gəlir vətəni talayanları, milləti aldadanları, kökünü unudanları qamçılaya-qamçılaya xalqın taleyinə qovuşuq taleyini yaşayır. S.Rüstəmxanlının bəşəri idealları uğrunda apardığı ictimai-siyasi mübarizəsi və onların ədəbiyyatda, sənətdə tərənnümü həmişə aktualdır. Çünki xalqın taleyindəki ağrılar, ictimai problemlər zaman-zaman öz çalarını, formasını dəyişərək eyni məzmun və mahiyyətlə davam edir". Sabir Rüstəmxanlının uğurlarının psixoloji köklərini Şəfəq Nasir yaxşı bilir. Və bunu məqaləsində xüsusi olaraq vurğulayır. Onun səmimiliyini, humanizmini, ağlını, müdrikliyini görməmək mümkün deyil deyə fikrinə qüvvət verir.

Nəhayət, Sabir Rüstəmxanlının zəngin və geniş yaradıcılığı dövrümüzün güzgüsü müstəvisində diqqətə çəkilir. Müəllif qeyd edir ki, Sabir bütün qərəzkarların müqavimətini qıraraq ayrı-ayrı insanların naqisliyini, eybəcərliyini, cəsarətsizliyini ictimai bəlanın kökləri kimi tənqid etməkdən çəkinmir.

Şəfəq Nasir Sabir Rüstəmxanlı obrazını təkcə şair kimi xarakterizə etmir, onu ictimai-tarixi hadisələrə cavab verən monimental əsərlərin müəllifi kimi təqdim edir. Biz məqalə müəllifinin düşüncələrindən belə qənaətə gəlirik ki, eyni zamanda Sabir Rüstəmxanlı bütün bunları yorulmadan, usanmadan qələmə gətirərkən, özünün ictimai-siyasi xadim missiyasını yerinə yetirmiş olur. Və Şəfəq Nasir Sabir Rüstəmxanlı obrazını bir məqalə çərçivəsində kifayət qədər zəngin faktlar əsasında işləyir: "Yazıçı var, sənətdə, ədəbiyyatda az işlənən, ya heç işlənməyən xam bir mövzuya müraciət edir. Burada mən əsasən tariximizlə bağlı tədqiqatları, ədəbi axtarışları nəzərdə tuturam. Bunlar böyük zəhmətdir, çətin bir yaradıcılıq yoludur. S.Rüstəmxanlı belə mövzularda yaratdıqları əsərləri ilə Azərbaycan ədəbiyyatına "Tanımaq istəsən" (1970), "Sevgim, sevincim" (1974), "Xəbər gözləyirəm" (1979), "Gəncə qapısı" (1981), "Sağol ana dilim" (1983), "Qan yaddaşım" (1986), "Ömür kitabı" (1988), "Bu sənin xalqındır" (1995), "Zaman məndən keçir" (1995) kimi töhfələr verib. Lakin adi bir detalı, əşyanı poeziyaya gətirərək ona yeni məzmun verə bilmək bacarığı da müəllifin yüksək sənətkarlığını bir daha nümayiş etdirir. O, cəmiyyətə artıq yük olan insanlarla bir daş parçasını müqayisə edir. Demirik ki, bu, sənətdə işlənməmiş mövzudur, söhbət S.Rüstəmxanlının təfəkküründə, düşüncə tərzində adiliyin heyrət doğuracaq bir poetik zövqlə mənalandırılmasından gedir. Bu nadir istedad sahiblərinə xas olan tutiyə bir keyfiyyətin S.Rüstəmxanlının ədəbi-ictimai fəaliyyətində işıqlı bir əksidir". Biz Şəfəq Nasirin bu qeydlərindəki yanğını kifayət qədər duyuruq, çünki onun qələmə aldığı ədəbiyyatşünas-tənqidçi kimi oxucularına bir daha tanıtmaq istədiyi sənətkarın özü də yanğı obrazıdır. Onun cəmiyyətə sevgili münasibəti, insanlarla doğmalığı əsas ilham mənbəyidir. Və görünür Şəfəq Nasir də yazıçının yaradıcılıq yolunu dəqiq izlədiyindən öz qənaətlərində tam aydın və durudur.



Şəfəq Nasirin qərəzkarlara münasibəti də kifayət qədər dəqiqdir. Siyasi rəqibləri Sabir Rüstəmxanlı haqqında belə bir fikir deməkdən çəkinmirdilər: "Şair gedib şeirini yazsın, onun siyasətdə nə işi" Şəfəq Nasir isə aççıq-aydın qərəzi görükən bu kölgəli sualın cavabını Sabir Rüstəmxanlının öz düşüncələri əsasında verir: "Meydanlara gedən milyonların böyük əksəriyyətinin yolu bir vaxt ədəbiyyatımızın ehtiyyatla göstərdiyi ictimai ağrılardan və milli fəlakətlərimizin dərkindən başlayıb".

Şəfəq Nasir doğru olaraq Sabir Rüstəmxanlını M.F.Axundovun, H.Zərdabinin, N.Vəzirovun, C.Məmmədquluzadənin, M.Ə.Sabirin... və digər fədakarların varisi hesab edir. Onun şair, yazıçı, publisist, ictimai xadim obrazını tam və aydın görmək üçün oxucuların diqqətini sənətkarın yaradıcılığına yönəldir.

Nəhayət, yazısının sonunda müəllif görkəmli sənətkarın, böyük ictimai-siyasi xadimin çox dəyərli digər əsərlərinin də adlarını çəkir: "Atamın ruhu" (2002), "Xətai yurdu" (2004), "Göy Tanrı" (2005) və s. Şəfəq Nasir bu qeydlərini 15 il bundan əvvəl yazıb. Və o zamandan bəri Sabir Rüstəmxanlı qaynar yaradıcılığını davam etdirməkdədir.

Şəfəq Nasir "Döyülə-döyülə ucalan insan" deyir. Və eyni zamanda döyüşlərdə bərkimənin, kristallaşmanın, yenməzliyin mahiyyətinə işıq salır.

Biz bir çox həqiqətləri işıqda görə bilirik.

*Əli Rza Xələfli*

*18.12.2020*